# Paşinyan ölkə əhalisini yeni müharibə ilə qorxudur

## Ermənistanda təkcə siyasi yox, sosial-iqtisadi müstəvidə də ağır böhran yaşanır

**Ermənistanda postmüharibə dönəmində gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək. Lakin Paşinyan iqtidarının yarıtmaz siyasəti, sülh müqaviləsinin imzalanmasının yubadılması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır.**

Sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Belə vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın daha da artmasına rəvac verir. İndi ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar.

Erməni ictimai xadim Qaqik Hovsepyan məqaləsində yazıb ki, Nikol Paşinyanın xarici siyasəti Ermənistanın subyekt olmaqdan çıxmasına və başqalarının qərarlarından asılı vəziyyətə düşməsinə səbəb olub. Onun sözlərinə görə, Ermənistan hökuməti cəmiyyəti yeni böyük müharibə ilə qorxudur, Qarabağdan imtinasını təzminat kimi sülh müqaviləsi vəd etməklə əsaslandırır. Ancaq sülh müqaviləsinin imzalanması prosesi yubanmaqda davam edir və Azərbaycan buna görə məsuliyyəti Ermənistanın üzərinə qoyur. Paşinyan bu qədər uzağa getməklə, o tələbləri yerinə yetirməyin yollarını tapmağa çalışır. Bakı İrəvandan növbəti güzəştlər əldə etməklə, adətən, Paşinyana nəfəs almaq imkanı verir ki, o, Ermənistan ictimaiyyətinin getdikcə zəifləyən müqavimətini sakitləşdirsin.

Bu arada ləğv edilmiş qondarma qurumun "sonuncu başçısı" Samvel Şahramanyan yoxa çıxıb. Belə ki, "4rd.am" nəşri yazıb ki, o, Qarabağdan Ermənistana köç etmiş şəxslərin dərinləşən problemlərindən və mübarizələrindən ardınca kənarda qalıb, demək olar heç bir yerdə görünmür: "Şahramanyan martın 29-da Qarabağdan Ermənistana köç etmiş şəxslərin mitinqində görünməyib, Azadlıq meydanında qurulan çadıra baş çəkməyib, halbuki onun ictimaiyyət qarşısında çıxışlar və bu mübarizəyə rəhbərlik etməli olduğu gözlənilirdi. Bizə dedilər ki, "Qarabağ parlamenti"nin "müxalif deputatları" bu yaxınlarda onunla kifayət qədər çətin danışıqlar aparıb, Şahramanyanı laqeydlikdə və Qarabağdan Ermənistana köç etmiş şəxslərin problemlərindən uzaq olmaqda ittiham ediblər. Şahramanyanın davranışı da yumşaq desək, anlaşılmazdır. O, nəinki gizli fəaliyyətə keçib, həm də onun yenidən "Qarabağın rəhbəri" seçilmək istəyib-istəməməsi, ümumiyyətlə, mövqeyinin nə olduğu da aydın deyil. Bizə onu da dedilər ki, Şahramanyanın bu qəribə davranışı yeni deyil, onu şəxsən Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyan "kurasiya edir" və Abazyana Şahramanyanın zərərsizləşdirilməsi kimi məsul vəzifə həvalə olunub. Abazyanın Şahramanyana nə vəd etdiyini və onu necə "nəzarət" altında saxladığını söyləmək çətindir, lakin "Qarabağ dairələri" hesab edirlər ki, Şahramanyan yanlış yol tutub və öz "vəzifələri"ni yerinə yetirməkdən imtina edib".

Bütün bunlar Ermənistanın üzləşdiyi problemlərin miqyasının daha da genişlənəcəyini, ölkənin təkcə siyasi yox, sosial-iqtisadi müstəvidə də böhrana düçar olacağını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 aprel (№ 78).- S.8.